**“Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş *nişanla* təltif olunma Qaydası”nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.10-cu bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş *nişanla* təltif olunma Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 14 yanvar 2010-cu il
8

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 14 yanvar tarixli 8 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş *nişanla* təltif olunma**

**QAYDASI**[2]

1. Bu Qayda “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 19.8-ci *və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 13.19-cu maddələrinə* uyğun hazırlanmışdır.[3]

2. Ümumtəhsil məktəbində təhsil aldığı müddətdə təhsildə xüsusi nəticələri ilə bərabər nümunəvi davranışı ilə fərqlənən tam orta təhsil səviyyəsinin məzunlarının namizədliyi qızıl və ya gümüş *nişanla* təltif olunmaq üçün təqdim edilir. Respublika fənn olimpiadalarının yekun mərhələsində, rayon (şəhər), ölkə və beynəlxalq səviyyəli bilik yarışlarında, müsabiqə və layihələrdə mükafata layiq görülmə də təhsilalanın qızıl və ya gümüş *nişanla* təltifi üçün namizədliyinin verilməsi zamanı nəzərə alınır.

3. Təhsilalanların qızıl və ya gümüş *nişanla* təltifi üçün namizədliyinin verilməsi məsələsinə sinif rəhbərinin təqdimatı əsasında məktəbin pedaqoji şurasında baxılır və müvafiq qərar qəbul edilir.

4. Aşağıdakı təhsilalanların qızıl və ya gümüş *nişanla* təltifi üçün namizədliyi verilə bilər:

4.1. ümumi orta təhsil səviyyəsini 75 faiz “əla” qiymətlərlə bitirənlər;

4.2. tam orta təhsil səviyyəsində oxuduğu müddətdə fənlər üzrə cari qiymətlərinin ən azı 75 faizi “əla” olanlar;

4.3. bütün fənlərdən illik qiymətləri “əla” olanlar;

4.4. bu Qaydanın 2-ci bəndində nəzərdə tutulan tələblərə uyğun olanlar.

5. Təhsilalanların qızıl və ya gümüş *nişanla* təltifi üçün namizədliyinin verilməsi barədə pedaqoji şuranın qərarı və həmin təhsilalanların fərdi siyahısı Azərbaycan Respublikası Təhsil Nazirliyinin müəyyən etdiyi formada hər il mayın 20-dən gec olmayaraq, yerli təhsili idarəetmə orqanları tərəfindən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim edilir.

6. Qızıl və ya gümüş *nişanla* təltifi üçün namizədliyi verilən təhsilalanlardan attestata yazılan yekun qiymətləri yalnız “əla” olanlar qızıl *nişana*, attestata yazılan yekun qiymətlərindən ən çoxu ikisi “yaxşı” (tədris dili və riyaziyyat istisna edilməklə) olanlar isə gümüş *nişana* layiq görülürlər.[4]

7. Məzunların qızıl və ya gümüş *nişanla* təltifi Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə rəsmiləşdirilir.

8. Qızıl və ya gümüş *nişana* layiq görülmüş təhsilalanların adları oxuduqları məktəbin “Şərəf kitabı”na yazılır.

9. Qızıl və ya gümüş *nişan* təntənəli şəraitdə təqdim edilir.[5]

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 27 fevral 2020-ci il tarixli **69** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 1 mart 2020-ci il, 47 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 216**)

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 27 fevral 2020-ci il tarixli **69** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 1 mart 2020-ci il, 47 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 216**) ilə adında və 1-ci hissəsində “**medalla**” sözü “**nişanla**” sözü ilə əvəz edilmişdir.

[2] 27 fevral 2020-ci il tarixli **69** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 1 mart 2020-ci il, 47 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 216**) ilə Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş

medalla təltif olunma Qaydası"nın adında, 2-ci hissəsinin birinci və ikinci cümlələrində, 3-7-ci hissələrində "**medalla**" sözü "**nişanla**" sözü ilə əvəz edilmişdir.

[3] 27 fevral 2020-ci il tarixli **69** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 mart 2020-ci il, 47 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 216)** ilə Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltif olunma Qaydası"nın 1-ci hissəsində "**maddəsinə**" sözü "**və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 13.19-cu maddələrinə**" sözləri ilə əvəz edilmişdir.

[4] 27 fevral 2020-ci il tarixli **69** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 mart 2020-ci il, 47 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 216)** ilə Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltif olunma Qaydası"nın 6-cı (hər iki halda) və 8-ci hissələrdə "**medala**" sözü "**nişana**" sözü ilə əvəz edilmişdir.

[5] 27 fevral 2020-ci il tarixli **69** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 mart 2020-ci il, 47 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 216)** ilə Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltif olunma Qaydası"nın 9-cu hissəsində "**medal**" sözü "**nişan**" sözü ilə əvəz edilmişdir.